AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 68, №3, səh. 164-171 (2013)

Sintaktik Üsulla Yaranan Genetik Terminlər

M.A. Nəcəfzadə [1, 2]

[1] *AMEA Botanika İnstitutu, Badamdar şossesi, 40, Bakı AZ1073, Azərbaycan;*
E-mail: nadjafzadeh@rambler.ru
[2] *AMEA Dilçilik İnstitutu; H.Cavid pr., 31, Bakı AZ1143, Azərbaycan*

Məqalədə genetik terminlərin Azərbaycan dilində yaradılmasında, rus və ingilis dillərində olduğu kimi, sintaktik üsulun əsas termindüzəltmə üsullarından biri olması vurğulanır, onların ingilis, rus, azərbaycan və latın dillərində müqayisəli lingvistik təhlili verilir. Bu üsulla termin yaradılarkən, adətən, iki və daha artıq söz birləşməsindən istifadə olunmasından bəhs edilir. Tövsiyə edilir ki, azərbaycan dilində genetik terminlərin yaradılması yalnız ingilis və rus dillərinə mənsub terminlər üçün qarşılıq müəyyən edilməsi kimi başa düşülməsin.

Açar sözlər: *genetik terminlər, çoxkomponentli terminlər, termindüzəltmə üsulu, ümumnəzəri derivasiya*

Genetik terminlərin yaradılması üçün ən əlverişli üsul – sintaktik üsul olub, azərbaycan dilinin özünə məxsus söz ehtiyatları əsasında terminlərin yaradılması və onların sistemləşdirilməsidir. Bu səbəbdən də daim, çox sürətlə inkişafda olan elm və texnikanın müxtəlif sahələri üzrə yaranan yeni-yeni anlayışları ifadə etmək üçün zəruri terminlər yaradılarkən, öncə ana dilimizin öz potensial imkanlarından yararlanmaq daha məqsədəuyğundur. Dilimiz kifayət qədər təkmil və zəngin dillərdən biridir. Belə təqdirdə genetika terminlərinin yaradılması üçün dilimiz hər cür daxili potensial imkanlara malikdir. Bu baxımdan, dilin öz lüğət ehtiyatlarından alınıb terminə çevrilmiş sözlərin, həmin dildə müxtəlif məqamlarda işlənilmə imkanı başqa dildən alınma terminlərə nisbətən daha çox olduğundan, belə sözlərin məqsədəuyğunluq əsasında termin, yaxud ümumişlək söz kimi işlədilməsinə ehtiyatla yanaşmaq və sözü işlədərkən bütün bu incəlikləri nəzərə almaq zəruridir (Dəmirçizadə, 1962).

Eyni zamanda azərbaycan dilində genetika terminlərinin yaradılması digər dillərə, o cümlədən ingilis dilinə mənsub terminlər üçün qarşılıq müəyyən edilməsi kimi başa düşülməməlidir. Bu baxımdan S.Sadıqova yazır: "Belə bir yanlış təsəvvür nəticəsində indiyədək terminoloji lüğətlərdə ciddi nöqsanlara yol verilimşdir. Əslində isə terminlərin yaradılması hər bir dilin özünə məxsus olan söz yaradıcılığı prosesidir" (Sadıqova, 2002).

Fikrimizcə, S.Sadıqovanın bu şəkildə yanaşması elmi cəhətdən müasir Azərbaycan dilinin termindüzəltmə imkanlarını, dilin öz lüğət fonduna istinadən, daha çox əsaslandırmaq tövsiyəsi elmi yanaşma baxımından məqsədəuyğundur.

Genetik terminlərin yaranması həm ingilis, həm rus, həm də azərbaycan dillərində elmi dilin ümumnəzəri *derivasiya* (törəmə) məsələlərinə söykənir, "belə ki, terminin bütün həqiqi xassə və keyfiyyətləri o (termin – M.N.), yalnız xüsusi mətnlərin tərkibində işlədilərkən, ya da professional ünsiyyətin şifahi formalarında özünü təzahür etdirir"... (Даниленко, 1986). "Bütövlükdə termindüzəltmə sistemi çox mürəkkəb bir orqanizmdır; elə bir orqanizm ki, formal komponentlər (termindüzəltmə üsulları və termindüzəltmə vasitələri) eləcə də termindüzəltmə mənbələrinin semantik strukturu ilə ən sıx əlaqədə olan termindüzəltmə vasitələrinin müxtəlif mənalarına aid komponentlərin elmi və texniki dilin mövcud olduğu bir dövrdə daha çox intişar tapıb" (Городилова, 1989).

Genetika üzrə yeni terminlərin yaradılmasına, ekstralinqvistik amillər, həmçinin cəmiyyətin ümumdünya elminin və iqtisadi tərəqqinin inteqrasiyasına tez bir zamanda qoşulmasına yardımçı olan belə anlamlara yaranan ehtiyac təsir göstərir. Y.V.Breus üç əsas termindüzəltmə üsulunu müəyyənləşdirmişdir:

1.Sintaktik üsul – söz birləşmələri vasitəsilə termin yaradılması;

2.Leksik üsul–ingilis terminlərindən alınmalar və kalkaların yaradılması;

3.Semantik üsul – rus dilində mövcud olan ingilis *koqnitiv* (dərk etmə) əsaslı sözlərin başqa cür dərk edilməsinin nəzərdə tutulması (Бируни, Теофраста, 2011).

Y.Breusun sxemindəki 3-cü tövsiyə sırf ingilis və rus dilləri üçün nəzərdə tutulduğundan, bu şablonu olduğu kimi azərbaycan dilində termindüzəltmə prosesinə tətbiq etmək olmaz; əgər buna təşəbbüs göstərilsə, o zaman bir kalkadan digər bir kalka yaratmaq lazım gələcəkdir. Belə olduğu halda, termin daha mücərrəd məna kəsb edər, elmi fikirin ifadəsi anlaşılmaz bir vəziyyət yaradar. Ona görə də bizə elə gəlir ki, azərbaycan dilində termindüzəltmə prosesinə orijinal dilin lüğət

fondundan istifadə etməklə söz almaq və lazım gələrsə, bilavasitə orijinal dildən alınma söz vasitəsilə azərbaycan dilində kalka yaradılmalıdır. Bu şəkildə yanaşma azərbaycan dilinin qrammatik-semantik məzmunundan və aqqlütinativ modelindən irəli gəlir.

Genetika terminlərinə gəlincə, onların müəyyən bir qismini termin-söz birləşmələri və mürəkkəb terminlər təşkil edir, məs.: toplanmış materialın (sort nümunənin) təkamül inkişafı (azərb.) – accession evaluation [əˊkseʃ(ə)nɪ̩vælju ˊeɪʃ(ə)n] (ing.) – эволюционное развитие накопленного материала (сорта-образца) (rus) – specimen evalutio (latın); toplanmış materialın (sort nümunələrin) səciyyələndirilməsi (azərb.) – accession characterization [əˊkseʃ(ə)n ̩kærɪktər(a)ɪ ˊzeɪʃ(ə)n] (ing.) – характеристика поступлений накопленного материала (сорта-образца) (rus) – specimen character (latın); növlərarası hibridləşmə (azərb.) – interspecific hybridization [̩ɪntə(:)spɪˊsɪfɪk ̩haɪbrɪdaɪ ˊzeɪʃ(ə)n] (ing.) – межвидовая гибридизация (rus) – hybridizatio inter-specificus (latın); növdaxili hibridləşmə (azərb.) – intraspecific hybridization [ˊɪntrəspɪˊsɪfɪk̩haɪbrɪdaɪˊzeɪʃ(ə)n] (ing.) – внутривидовая гибридизация (rus) – hybridizatio intra-specificus (latın).

Termindüzəltmə prosesində mürəkkəb söz birləşmələrindən və mürəkkəb terminlərdən istifadə etmək kimi bir yaradıcılıq üslubuna meyl göstərmək, zənnimizcə, doğru deyildir. Çünki bütün hallarda hər hansı elmi fikri, o cümlədən, genetika sahəsində, bir və ya iki terminlə ifadə etmək elmi-məntiqi düşüncəyə daha çox sərrastlıq və səlistlik gətirir. Bu mənada müasir azərbaycan dili və ümumtürk leksikologiyasına müraciət edilməsi məsləhətdir. Belə ki, ümumtürk leksikologiyası öz elmi ifadə imkanlarına və leksikoloji zənginliyinə görə dünyanın inkişaf etmış dillərinin heç birindən geri qalmır. Bu terminoloji vahidləri struktur baxımından aşağıdakı qruplara bölmək olar:

1) qoşa söz: təcrübə-sınaq, sito-genetika, qan-damar (sistemi);

2) söz birləşməsi: inbred heyvanlar, bitki saxlama;

3) mürəkkəb söz: öz-özünətozlanma, bərabərsporlular;

Xatırladaq ki, bu qəbildən olan genetika terminləri sintaktik üsul vasitəsilə yaradılır. Prof.M.Qasımov bu barədə yazır: "Sintaktik üsulla terminlər yaradılarkən, adətən, iki və daha artıq söz birləşməsindən istifadə olunur" (Qasımov, 1973), məs.:bitki saxlama (azərb.) – plant conservation [̩konsə: ˊveɪʃ(ə)n](ing.) – хранение растительности (rus) – vegetatis conservatio (latın); gen mühafizəsi (azərb.) – gene protection [dʒɪ:n prə ˊtekʃ(ə)n] (ing.) – защита ген (rus) – genum protectio (latın). "Gen" sözü, (latın) *genum* – "hüceyrədə müəyyən zülalın sintezinə nəzarət edən və orqanizmin bu və ya digər əlamətinin inkişafına təsir göstərən DNT molekulunun müəyyən sahəsi" deməkdir.

Əsas komponentdən asılı olaraq, söz birləşmələri əsas söz isimlə ifadə olunan *substantiv* (isim), *adjectiv* (sifət) (əsas söz – sifət, feli sifət, sıra sayı), fel və zərf söz birləşmələrinə bölünür. N.V.Kulibinaya görə, terminoloji söz birləşmələri tədqiqatda həm də çoxkomponentli terminlər adlandırılır. Belə terminlər təzə yaranan anlayışların daha dəqiq, daha dürüst və daha tam ifadəsi üçün terminoloji sistemlərin artıq formalaşdığı, yeni kəşflərin isə artıq mövcud olan terminlərin dəqiqləşdirilməsinə və modifikasiyasına ehtiyacı olan sonrakı mərhələlərdə meydana çıxırlar. Buna komponentləri *atributiv* əlaqədə olan *descriptive* "izahedici / təsviredici" terminlərin yaranması vasitəsilə nail olunur (Бреус, 2000).

Çoxkomponentli terminlər dil vasitələrinin elmi terminologiyasında məntiqi müəyyənliyin asanlaşdırılmasına kömək edirlər. Çoxkomponentli terminlərin əmələ gəlməsi və istifadə olunması termin haqda ümumi təlimə dəyişiklik edir; ona görə ki, o, törəmə sözlərin əmələ gəlməsində müxtəsərlik, münasiblik və uyğunluq kimi ümumi qəbul edilmiş səciyyələri inkar edir. Çoxkomponentli terminlərin müxtəsərlik tələblərini yerinə yetirməməsinə baxmayaraq, bu, onun neqativ səciyyəsi hesab edilmir; belə ki, verilən anlayışın dəqiqliyi ön plana çəkilir. Akad.D.S.Lotte göstərirdi ki, əgər strukturunu məhdudlaşdırmasan dəqiq termin yaratmaq asandır, amma belə termin təksözlü terminə səciyyəvi olan törəmə söz xassəsinə malik olmur (Лотте, 1948).

Azərbaycan dilində sintaktik üsulla genetika terminlərinin yaradılmasında iki üsul əsasdır: a) leksik-sintaktik üsul və b) morfoloji-sintaktik üsul. Belə bir mürəkkəb quruluş tipi "sadə termin + sadə termin" strukturundan ibarət olur, dolayısı ilə: mürəkkəb terminlərin komponentlərində sözdüzəldici şəkilçilər iştirak etmir; "sadə termin + sadə termin" strukturu alınma sözlərdən qurulur, məs.: deytero+genez (azərb.) – deuterogenesis [̩dju:tərəˊdʒenɪsɪz] (ing.) – дейтерогенез (rus) – deuterogenes (latın) – deutero (yunanca – dεútepoç) – "ikinci" deməkdir; homoziqot: 1) genin iki eyni allel formasına malik fərd; 2) genin eyni allel formasını daşıyan qametlərin qovuşması nəticəsində əmələ gəlmiş hüceyrə (azərb.) – homozygote [̩homəˊzaigout] (ing.) – гомозигота: 1) особь, имеющая два одинаковых аллельных гена 2) клетка, возникшая от слияния гамет, несущих одинаковые аллельные гены (rus) – homozygóta (latın); heteroziqot – bir və ya bir neçə

genin müxtəlif allellərini birləşdirən hüceyrə və ya fərd (nəsildə müxtəlif quruluşlu qamet və parçalanma verir) (azərb.) – heterozygote [ˌhetərə´zaıgout] (ing.) – гетерозигота, клетка или особь, сочетающая разные аллели одного или нескольких генов (дает различного строения гаметы и расщепление в потомстве) (rus) – heterozygóta (latın); qenofond (azərb.) – gene pool [´dʒı:n´pu:l] (ing.) – генефонд = генофонд = генфонд (rus) – copiae genetica (latın); genebank (azərb.) – genebank [´dʒı:n ´bænk] (ing.) – генебанк (генобанк, генбанк) (rus) – genobank (latın).

Ümumiyyətlə, terminlə termin-söz birləşmələrinin fərqləndirilməsi müəyyən qədər asandırsa, *mürəkkəb termin-söz birləşmələri*nin münasibətini təyin etmək və onları fərqləndirmək nisbətən çətindir. Mürəkkəb quruluşlu terminlər "*sadə termin+düzəltmə termin*" birləşməsindən yaranır, məsələn: öz-özünə + tozlanma (azərb.) – self pollination [´selfˌpolı´neıʃ(ə)n] (ing.) – самоопыление (rus) – auto pollinatio (latın); öz-özünü+seyrəlmə (azərb.) – self pruning [´self´pru:nıŋ] (ing.) – самоочищение (сбрасывание веток от ствола деревьев) (rus) – auto purificátio (latın); çox+qatlı membran (azərb.) – multilayer membrane [ˌmΛltı´leıə] (ing.) – многослойная мембрана (rus) – membrana pluristratosus (latın); çoxfunksiyalı kombayn (azərb.) – multifunctional combine [ˌmΛltı ´fΛnkʃ(ə)nəl kəm´baın] (ing.) – многофункциональный комбайн (rus) – combain multifunctionalis (latın) (Гуляев и Мальченко, 1975).

Genetika üzrə mürəkkəb termin-söz birləşmələrinin düzəltmə komponenti -ıcı^4, -ma^2 şəkilçilərindən ibarət olur. Məs: nümunə (taksona daxil edilmiş material) çoxald+ıcı(sı) (azərb.) – (accession) multiplicator [ˌmΛltıplı´keıtə] (ing.) – множитель образца (rus) – multiplicator (latın); boy gücləndir+ici (si) (azərb.) – enhancer [ın´ha:nsə] (ing.) – ускоритель роста (rus) – phytohormon (latın); məlumatəksetdir + ici (si) – reflector [rı´flektə] (ing.) – отражатель данных (rus) – demonstrotıvus (latın); toxum qurud+ucu (su) (azərb.) – dehumidifier [də ˌhju ´mıdıfaıə] (ing.) – высушитель семян (rus) – exsiccor (latın); əlamət təyined+ici (si) (azərb.) – identificator [aıˌdentıfı´keıtə] (ing.) – идентификатор признаков (rus) – identificator (latın); səciyyə təsvired+ici (si), səciyyə izahed+ici (si) mənasını verən "discriptor" termini (azərb.) – descriptor [dıs´krıptə] (ing.) – дескриптор (rus) – discriptor (latın).

Göründüyü kimi, *-ıcı^4*, *-ma^2* şəkilçiləri ən çox "etmək" köməkçi felinə artırılır və belə terminlər termin birləşmənin hər iki komponentinə aid edilir. Genetika üzrə mürəkkəb quruluşlu termin-söz birləşmələrinin bəziləri "*isim + -la^2 şəkilçisi + feli sifət*" strukturundan ibarətdir. Məs.: maşınla becərilən (azərb.) – machine cultivated [mə´ʃı:n´kΛltıveıtıd] (ing.) – механически культивируемый (rus) – cultus cum aggregatum (latın); əllə becərilən (azərb.) – manually cultivated [´mænjuəlı ´kΛltıveıtıd] (ing.) – культивирование вручную (rus) – manus cultus(latın).

"*-ıcı^2*" şəkilçili sifət + isimdən ibarət olanlar: yağış yağdır+ıcı qurğu (azərb.) – rain maker [´reın´meıkə] (ing.) – дождевальная установка (rus) – aggregatum pluvialis (latın).

Dilimizdə mürəkkəb genetika terminləri öz komponent mənşəyi baxımından müxtəlifdir. Genetikaya aid sənəd və matteriallarda komponentləri eyni bir dilə mənsub sözlərlə yanaşı hibrid terminlərdən əmələ gələn terminlərə (anlamlara) də rast gəlinir. Onları komponentlərin nitq hissələri ilə ifadəsinə görə də qruplaşdırmaq mümkündür:

1)birinci komponenti qeyri-müəyyən saydan ibarət olanlar: çoxnüvəli (azərb.) – multinucleate [ˌmΛltı´nju:kli:t] (ing.) – многоядерный (rus) – multinucleáris (latın); çoxhüceyrəli (azərb.) – multicellular [ˌmΛltı´seljulə] (ing.) – многоклеточный (rus) – multicellularis, pluricellularis (latın); bərabər+sporlular (azərb.) – isosporae [´ızo´sporə] (ing.) – равноспоровые (rus) – isosporae (latın); bərabər+qamçılılar (azərb.) – isocontae [´ızo´kontə] (ing.) – равношгутиковые (rus) – isocontae (latın); çox + mərhələli (azərb.) – multistage [´mΛltı´steıdʒ] (ing.) – многоэтапный (rus) – multistadium (latın).

2)birinci komponenti isim, ikinci komponenti feli sifətdən ibarət olanlar: toxumsayan (azərb.) – seed counter [´sı:d ´kəuntə] (ing.) – прибор для определения количества семян (rus) – seed counter (latın); yemhazırlayan (azərb.) – feed maker [´fı:d´meıkə](ing.) – кормоприготовитель-ная машина (rus) – aggregátum pabúlum (latın) (Sönməzoğlu, 2000).

3) birinci komponenti isim, ikinci komponenti *-ıcı^2* şəkilçili sözdən ibarət olanlar: təyin+edici(azərb.) – identificator [aıˌdentıfı´keıtə](ing.)– идентификатор(rus) – identificator(latın).

4)birinci komponenti çıxışlıq halında isim, ikinci komponenti – *ma^2* şəkilçili sözdən ibarət olanlar: sınaqdan+keçirmə – testing [testıŋ] (ing.), ispıtanie (rus), examen, seminum (latın); xəstəlikdən+qorunma (mühafizə) (azərb.) – disease protection (ing.) – защита от болезней (rus) – morbi protectio (latın); cücü və zərərvericilərdən qorunma (mühafizə) (azərb.) – pests and insects protection [pests ənd ´ınsekts prə´tekʃ(ə)n] (ing.) – защита от паразитов и вредителей (rus) – morbi

parasitus et infesta (latın).

S.I.Ojeqov terminlər haqqında yazır: "Həqiqətən, sözün əsil mənasında termin olan termin-söz birləşmələri müəyyən məna sistemindən ibarət mövcud fikri ifadə edən sərbəst söz birləşmələridir" (Ожегов, 1957).

Müasir azərbaycan dilində terminlərin müəyyən bir qisminin qoşa sözlər, şəklində əmələ gəlməsi ilə bağlı olaraq, onların mahiyyəti haqda qısa şərh verilir. Bu terminlər xarici dillərdən, o cümlədən, müqayisə etdiyimiz ingilis, rus və latın dillərindən alınmalar şəklində dilimizə keçir. Bu şəkildə olan genetika terminoloji vahidlərinin formalaşmasında *təcrübə-, cyto-, qan-,* və s.leksemlər iştirak edir (Kazımov, 2002), məs.: təcrübə-sınaq (azərb.) – research-experiment [rɪˊsə:tʃ ɪksˊperɪmənt] (ing.) – опыт-исследование (rus) – experimentum-investigatio (latın); sito-genetika (azərb.) – Cyto-genetics [ˌsaɪtədʒɪ ˊnetɪks](ing.) – цито-генетика (rus) – cyto-genetika (latın); qan-damar (sistemi) – blood-vascular (system) [ˊblʌdˊvæskjulə (ˊsɪst(ə)m)] (ing.) – кровяная-сосудистая (система) (rus) – (systema) haemato-vasculare (latın).

Azərbaycan dilində işlədilən genetika terminlərinin bir qisimini söz birləşməsi şəklində olan terminoloji vahidlər təşkil edir. Bunlar quruluş etibarı ilə iki və daha artıq terminin sintaktik üsulla birləşməsindən əmələ gəlir; belə termin birləşməsi vahidləri həm qrammatik, həm də ardıcıllıq baxımından bir-biri ilə əlaqədardır.

Söz birləşməsi şəklində olan terminlərin təsnifatı ilə S.Sadıqovanın fikirlərinə istinad etsək, genetika terminlərini terminoloji birləşmə kimi həm komponentlərin hansı əsasdan olmasına, həm də nitq hissələrinə görə qruplaşdırmağı məqsədə müvafiq hesab etmiş olarıq; bunlar aşaıdakılardır:

1) hər iki komponent azərbaycan dilinə məxsus sözlərdən ibarət olanlar: (genetik) məlumat əldə etmə (azərb.) – (genetic) data aqcuisition [ˊdeɪtə ækwɪˊzɪʃn] (ing.) – сбор (генетических) данных (rus); (genetik) məlumat toplama (azərb.) – (genetic) data collection [ˊdeɪtə kəˊlekʃ(ə)n](ing.)– сбор (генетических) данных(rus) – collecta informatio (latın); bitkilərin (süni) yayılması (azərb.) – plant dıstribution [ˊpla:nt dıstrıˊbjuʃ(ə)n] (ing.) – распространение растений (искусственным путем) (rus) – planta afugus artificiale (latın); bitkilərin təbii yolla yayılması (azərb.) – plant spreading [ˊpla:nt sprˊedıŋ] (ing.) – распространение растений (естественным путем) (rus) – planta afugus naturale (latın); müxtəlif cinslərin çarpazlaşdırılması (~ mələzləşdirilməsi, ~ hibridləşdirilməsi) (azərb.) – intercrossing [ˊıntə:ˊkrosıŋ](ing.) *syn.*: intergeneric hybridization – скрещивание разных пород (rus); növlərarası mələzləş(dir)mə (~ hibridləş(dir)mə;

2) hər iki komponent Avropa mənşəli sözlərdən ibarət olanlar: adaptiv seleksiya (seçmə) (azərb.) – adaptive selection [əˊdæptıv sıˊlekʃ(ə)n] (ing.) – (адаптивный) приспособительный отбор (rus) – selectio adaptiva (latın); aqrotexniki kultivar (aqrotexniki üsulla becərilən mədəni bitki sortu) (azərb.) – agrotechnical cultivar [ˌægro(u) ˊteknık(ə)l ˊkʌltıˊvɑ:] (ing.) = agrotechnical cultivated variety – агротехнический культурный сорт растения (rus) – cultivar agrotechnicus latın); kompleks seleksiya (seçmə) (azərb.) – complex selection [ˊkompleks ˌsıˊlekʃ(ə)n] (ing.) – комплексный отбор (rus) – selectio complexus (latın); hər üçü eyni zamanda alınmadır.

3) komponentləri müxtəlif dillərə məxsus sözlərdən ibarət olanlar: təcrübə mübadiləsi mexanizmi (azərb.) – practice sharing mechanizm [ˊpræktıs ˊʃearıŋ ˊmekənızm] (ing.) – механизм обмена опыта (rus) – practicus commutatio modus (latın); toplanmış material (sort-nümunə) kolleksiyasının saxlanması (azərb.) – accession conservation [əˊkseʃ(ə)nˌ kənsə:ˊveıʃ(ə)n] (ing.) – содержание накопленого материала (rus) – materia conservatio (latın); toplanmış material (sort-nümunə) kolleksiyasının mühafizəsi (azərb.) – accession protection [əˊkseʃ(ə)n prəˊtekʃ(ə)n] (ing.) – защита накопленного материала (rus) – materia protectio (latın); toplanmış material (sort-nümunə) kolleksiyasının dublikasiyası (azərb.) – accession duplication [əˊkseʃ(ə)n ˌdʌplıˊkeıʃ(ə)n] (ing.) – дубликация накопленного материала (rus) – materia duplicatio (latın); toplanmış material (sort-nümunə) kolleksiyasının çoxaldılması (azərb.) – accession multiplication [əˊkseʃ(ə)nˌmʌltıplıˊkeı ʃ(ə)n] (ing.) – размножение (увеличение) накопленного материала (rus) – materia multiplicatio (latın);

4) birinci komponenet *adlıq halında olan isimdən,* ikinci komponent *I və III şəxslər üzrə mənsubiyyət şəkilçisi qəbul etmiş isim*dən ibarət olanlar, məs.: səpin dövrü (azərb.) – sowing period [ˊsouwıŋˊpıərıəd] (ing.) – период посева (rus) – seminatio periodus (latın); suvarma mexanizmi (azərb.) – irrigation mechanizm [ırı ˊgeıʃ(ə)n ˊmekənızm] (ing.) – механизм орашения (rus) – modus irrigatio (latın); doydurma metodu (azərb.) – enrichment method [ın ˊrıtʃmənt ˊmeθəd] (ing.) – метод обогащения (rus) – methodus ampilificandi (latın); tədqiqat metodları (azərb.) – research methods [rıˊsə:tʃˊmeθədz] (ing.) – методики исследования (rus) – investigatio methodi (latın); bitki məhsuldarlığı (azərb.) – crop productivity [krop ˌprodʌkˊtıvıtı] (ing.) – продуктивность культуры (rus) – cultura productivitas (latın); ətraf mühit amili (azərb.) – environmental factor [ın ˌvaıər(ə)nˊment(ə)l fæktə] (ing.) – экологический

фактор (rus) – factor ecologicus (latın); Azərbaycanca "DNT elektroforezi" söz birləşməsi ingilis, rus və latın dillərində müvafiq olaraq: "DNA electrophoresis[ˊdıˊenˊeığıˊlektro(u)fəˊrezıs] – электрофорез ДНК – DNA electrophoresis"dir.

5) birinci komponent *sifət*dən, ikinci komponenti *adlıq halda olan isim*dən ibarət olanlar, məs.: genoloji şəcərə (azərb.) – family tree, genealogical tree [ˌdʒınıəˊlodʒık(ə)l trı:] (ing.) – генеалогическое древо (rus) – varianta biologica (latın); genetik material (azərb.) – genetic material [dʒıˊnetık məˊterıəl] (ing.) – генетический материал (rus) – materia geneticus (latın); genetik kod (azərb.) – genetic code [dʒıˊnetıkˊkoud] (ing.) – генетический код (rus) – systéma signórum genéticum (latın);

6) birinci komponent *feli sifət*dən, ikinci komponent *isim*dən ibarət sözlər, məs.: tezyetişən (faraş) meyvə (azərb.) – early-ripened fruit [ˊə:lıˊraıp(ə)nd ˊfru:t] (ing.) – раннеспелый фрукт (rus) – fructus praecox (latın); gecyetişən sort (azərb.) – lateripened variety [leıtˊraıp(ə)nd vəˊraıətı] (ing.) – позднеспелый сорт (rus) – cultivar tradimatirus (latın).

7) birinci komponent *say*dan, ikinci komponent *isim*dən ibarət sözlər, məs.: birinci yığım(azərb.) – first harvest [ˊfə:stˊha:vıst] (ing.)– первый урожай(rus) – proventus primus (latın); ikinci biçin (azərb.) – second cut [ˊsek(ə)nd kʌt] (ing.) – второй сенокос (rus) – fenisicium secondarus (latın); birinci suvarma – first irrigation [ˊfə:stırıˊgeıʃ(ə)n] (ing.) – первое орашение (rus) – irrigatio primus(latın);

Bu növ termin-söz birləşmələrdə termin-sözlər də termin-sifətlər kimi, isimlərin əvvəlində heç bir dəyişikliyə uğramır, isimlərin növ və xüsusiyyəti onlara təsir etmir. Bu vəziyyətdə termin saylar heç bir formal əlamət-şəkilçi qəbul etmir. Terminologiyada saylar bilavasitə terminlərin yaranmasında fəal iştirak edir və başqa terminlərlə əlaqəli olur.

Azərbaycan dilində birinci komponent düzəltmə terminlərdən ibarət olan genetika termin-söz birləşmələri də üstünlük təşkil edirlər, məs.: işçi arı (azərb.) – working bee [ˊwə:kıŋ bı:] (ing.) – рабочая пчела (rus); apis laborum (latın); – bu kimi termin-söz birləşmələri yanaşma əlaqəsi əsasında əmələ gəldiyindən I növə aiddir. II növ termin-söz birləşmələri şəklində olan genetika terminləri dildə nisbətən çoxluq təşkil edir; terminlərin biri digərini müxtəlif aspektdən təyin etdiyi üçün, bunları bir neçə tipə ayırmaq olar:

1) birinci komponent ikinci komponentin səciyyəvi xüsusiyyətlərini bildirir. Dolayısı ilə, birinci komponent ikincinin konkret olaraq növünü müəyyənləşdirir, məs.: toxum qutusı (qozası) (azərb.) – seedball [ˊsı:d bo:l] (ing.) – семенная коробочка (rus); capsula seminalis (latın); göbələk xəstəliyi (azərb.) – fungus disease [ˊfʌŋəs dıˊzı:z] (ing.) – грибковая болезнь (rus) – morbi fungus (latın); meyvə ləti – fruit flesh[ˊfru:t fleʃ](ing.) – мякоть фрукта(rus); fructus pulpa(latın).

2) birinci komponent ikinci komponentin konkret növünü ifadə edir və asılı komponent xüsusi addan ibarət olur: Mendel nəzəriyyəsi (azərb.) – Mendel's Theory [ˊmendelz ˊθeorı] (ing.) – Теория Менделя (rus) – Theoria Mendelis (latın); Herkules böcəyi (azərb.) – Hercules beetle [ˊhə:kʲulı:z ˊbı:tl] (ing.) – жук-Геркулес (rus); Dynastes hercules (latın);

3) birinci komponent ikinci komponentin konkret növünü ifadə edir: kolleksiya bağı (azərb.) – collection garden [kəˊlekʃ(ə)nˊga:dn] (ing.) – коллекционный сад (rus) – hortus collectaneus (latın); əmələgəlmə (yaranma) mənbəyi (azərb.) – source of origin [ˊso:səvəˊrıgn] (ing.) – источник образования (rus) – formatio fons (latın);

Bu tip genetika termin-söz birləşmələri də çoxluq təşkil edirlər: mutasiyaların populyasiyada təsadüfi yayılması (azərb.) – genetic drift [dʒıˊnetıkˊdrıft] (ing.) – случайное распространение мутаций в популяции (rus) – vagabundus geneticus (latın); eyni vaxtda iki bitkinin becərilməsi (azərb.) – double cropping [ˊdʌblˊkropıŋ] (ing.) – одновременное культивирование двух культур (rus) – biformis cultura simultaneus cultivatio (latın); nümunələrin səciyyələndirilməsi (azərb.) – accession characterization [ə ˊkseʃ(ə)n ˌkærıktər(a)ı ˊzeıʃ(ə)n] (ing.) – характеристика поступлений (rus) – materia character (latın); biomüxtəlifliyin mühafizəsi(azərb.)– biodiversity protection [ˊbaıo(u)daıˊvə:sıtı prə ˊtekʃ(ə)n](ing.)– защита биоразнообразия (rus) – protecto varitata biologica (latın).

Üçüncü tip termin söz birləşmələri özlərinə müxtəlif termin cəlb edərək öz tərkiblərini say etibarı ilə genişləndirirlər, məs.: biomüxtəlifliyin dayanıqlı istifadəsi (azərb.) – sustainable use of biodiversity [səsˊteınəblˊju:z əv ˊbaıo(u)daıˊvə:sıtı] (ing.) – рациональное использование биоразнообразия (rus) – varitata biologica usus rationalis (latın); bitki genetik ehtiyatlarının elmi araşdırılması (azərb.) – scientific investigation of plant genetic resources [ˌsaıən ˊtıfı kˌınvestıˊgeıʃ(ə)nəv ˊpla:nt dʒıˊnetık rıˊso:sız] (ing.) – научное исследование генетических ресурсов ратительностей (rus) – scientificus geneticae copiae vegetabiles (latın).

Termin-söz birləşməsi strukturlu terminlər üç cür olur:

a) birinci növ təyini söz birləşməsindən ibarət olanlar, məs.: faraş meyvə (azərb.) – early-ripend fruit [ˊə:lı ˊraıp(ə)nd ˊfru:t] (ing.) –

раннеспелый фрукт (rus) – fructus praecox (latın); yeni sort (azərb.) – recent variety [΄rısənt və ΄raıətı] (ing.) – новый сорт (rus) – cultivar novus (latın);

b) ikinci növ təyini söz birləşməsindən ibarət olanlar, məs.: növlər+arası (azərb.) – interspecific [ˌıntə(:)spı΄sıfık] (ing.) – межвидовой (rus) – interspecıficus (latın); növ+daxili (azərb.) – intraspecific [ˌıntrəspı΄sıfık] (ing.) – внутривидовой (rus) – ıntraspecificus (latın); inbrid çarpazlaşma əmsalı (azərb.) – coefficient of inbreeding [ˌkəuı΄fıʃ(ə)nt əv΄ın΄brı:dıŋ] (ing.) – коэффициент инбридного скрещивания (rus) – hybridizatio inbreed coĕfficiens (latın); (bu, genetika termin birləşməsində "indbrid" – qohumlararası mənasını verən alınmadır);

c) üçüncü növ təyini söz birləşməsindən ibarət olanlar, məs.: biomüxtəlifliyin mühafizəsi (azərb.) – protection of biodiversity [prə΄teıkʃ(ə)n əv΄baıo(u)daı΄və: sıtı] (ing.) – защита биоразнообразия (rus) – varitata biologica protectio (latın); biomüxtəlifliyin (davamlı) istifadəsi (azərb.) – (sustainable) use of biodiversity [səs΄teınəbl ΄ȷu:z əv ΄baıo(u)daı ΄və:sıtı] (ing.) – (рациональное) использование биоразнообразия (rus) – varitata biologica usus (rationalis) (latın); bitki genetik ehtiyatlarının elmi araşdırılması (azərb.) – scientific investigation of plant genetic resources [ˌsaıən΄tıfık ˌınvestı΄geıʃ(ə)n əv ΄pla:nt dʒı΄netık rı΄so:sız](ing.) – научное исследование генетических ресурсов растительностей (rus) – scientificus geneticae copiae vegetabiles (latın).

Tərəfləri ingilis mənşəli komponentlərdən ibarət olan terminlər də vardır ki, onlar digər struktura malikdirlər; həmin sözlər əsasən - *elektro, izo, metr, qrafiya* morfemlərinin iştirakı ilə əmələ gəlir, məs.: elektro+fiziologiya (azərb.) – electro-physiology [ı΄lektrəˌfızı΄olədʒı](ing.) – электрофизиология (rus) – electro-physiologia (latın); elektro+şok (azərb.) – electroshock (therapy) [ı΄lektrə ΄ʃok] (ing.) – электрошок (rus) – electroaffectio (latın); izoxron (eyni vaxtda baş verən) (azərb.) – isochronous [aı΄sokrənəs] (ing.) = isochronic – изохронный, одно-временный (rus) – isochronus (latın); bio+metrik (azərb.) – biometric [baıə(u) ΄mıtrık](ing.) – био-метрический (rus) – biometricus (latın); geo+botanika (azərb.) – geobotany [dʒeo ΄botənı] (ing.) – геоботаника (rus) – geobotanica (latın); digər misal: layering [΄leıərıŋ] – *syn.:* propagation by layering – rusca "размножение отводками", azərbaycan dilində "qollarla çoxalma", latın dilində "ablactatio"; – bu mürəkkəb termin birləşməsinin birinci hissəsi "qollarla" sözü "qat, lay, sira, şitil, qələm (bitkidən qoparılaraq ayrıca əkilən gövdə və ya kök parçası)" və s. mənalarını verən ingilis mənşəli "layer" sözündən formalaşıb və termin birləşməsinin ikinci hissəsini təyin edir; **nitq hissəsi kimi düzəltmə sifət, yəni isim (qol) + cəm şəkilçisi (lar) + qoşma (la) + say(çox) + felin əmr şəklini əmələ gətirən şəkilçi(al) + düzəltmə isim əmələ gətirən şəkilçi(-ma).** Seminification [ˌsemınıfı΄keıʃ(ə)n] – rusca "размножение семенами", azərbaycanca "toxumla çoxalma", latınca "seminificatio"; – istinad olunmuş lüğətdən göründüyü kimi (Даниленко,1986), latın mənbələrindən gələn "seminifikasiya" kimi terminlər beynəmiləl terminlərdir, lakin bu terminin istər rus, istərsə azərbaycan dillərində müvafiq variantı mövcuddur. Bu mürəkkəb termin birləşməsinin birinci hissəsi "toxumla" sözü termin birləşməsinin ikinci hissəsini təyin edir; nitq hissəsi kimi düzəltmə sifət, **yəni isim (toxum) + qoşma (la) + say (çox) + felin əmr şəklini əmələ gətirən şəkilçi (al) + düzəltmə isim əmələ gətirən şəkilçi (-ma)**. Double F_1 [΄dΛbl΄ef΄wΛn] – потомок от скрещивания двух гибридов F_1 от разных родителей (потомок (F_1) от скрещивания двух разных гибридов)(rus) – ikiqat mələz/hibrid (iki F_1 hibridinin çarpazlaşmasından alınan nəsil); propagator [΄propəgeıtə] – а) производитель потомства (о животных) (rus); a) nəsil artıran (heyvanlar barədə), (döllük heyvan); b) фермер, сеятель (о человеке, занимающемся высаживанием и выращиванием растений) – b) fermer, əkinçi (bitki əkilməsi və becəreilməsi ilə məşğul olan adam).

Ingilis dilinə mənsub təksözlü terminoloji vahidin və anlayışla birlikdə çoxkomponentli terminin alınması hadisəsi zamanı, azərbaycan dilində yeni genetika termini yaranarkən, termindüzəltmənin iki üsulunun – leksik və sintaktik üsullarının özünəməxsus birləşməsini qeyd etmək lazımdır. Əgər təksözlü terminoloji vahid nominasiyanın ehtiyacını ödəməyə qabil deyilsə, onda mürəkkəb tərkibli anlayışlara müraciət olunur. Söz birləşmələrinə müraciət anlayışların sintaktik üsulla mənalandırılması işində əsas yer tutan müasir genetika terminologiyasında termin yaradıcılığıyla bağlıdır. Ona görə də o, istər tərkib baxımından, istərsə ifadəolunma baxımından azərbaycan, rus və ingilis dillərinin əsas səciyyəsindən ibarətdir. Bu, ingilis, rus və azərbaycan dillərinin termin sistemi üçün də səciyyəvidir. Göstərilən termin sistemlərinin terminoloji söz birləşmələrinin özünəməxsus xüsusiyyəti özünü onda göstərir ki, onlar ingilis leksemlərinin azərbaycan və rus termin sistemlərinə gətirilməsi nəticəsində bu dillər üçün ümumiləşirlər. Genetika termin söz birləşmələri nominasiyanın tamlığı xüsusiyyətinə malik olaraq (aşaıdakı kimi) genetikanı təqdim edən anlayışların möhkəm bir strukturudur, məs.: environmental effect resistance [ın΄vaıər(ə)n ment(ə)l ı΄fekt ΄rezıstəns] (ing.) – устойчивость к действию

окружающей среды (rus) – ətraf mühit təsirinə davamlılıq (azərb.) – resistantia ad cicumstantia (latın); symbiosis living beans [ˌsımb(a)ı´ousıs ´lıvıŋ ´bı:nz] (ing.) – живые организмы, живущие в симбиозе (rus) – simbioz (müştərək) həyat sürən canlılar (azərb.) – viva organisms in symbiosis (latın); amphibian [æm´fıbıən] (ing.) – земноводное (rus) – suda-quruda yaşayanlar (azərb.) – amphibius (latın).

Terminoloji söz birləşmələri onların mürəkkəb daxili semantik strukturu olan əsas və asılı komponentlərdən və onların arasındakı əlaqədən ibarətdir.

Əsas komponent – **əsas məna daşıyan söz**, asılı komponent isə **əsas mənanı tamamlayan söz** formasından ibarətdir. Nominasiya vasitəsi kimi terminoloji söz birləşməsi əsas komponent adlanan hadisə, proses və hərəkət mənasını verir, ondan sonra asılı komponent vasitəsilə dəqiqləşdirilir, məs.: aktiv zəhərli heyvanlar (azərb.) – active poisonous animals [´æktıv ´poıʃnəs ´ænıməlz] (ing.) – особо ядовитые животные (rus) – animale venonosus (latın); aseptik heyvanlar – micro-organismfree animals [´maıkrə(u) ˌo:gə ´nızm frı: ´ænıməlz] (ing.) – асептические животные (rus) – animale asepticae (latın); inbred heyvanlar (yaxın qohum fərdlərin mələzləşdirilməsindən alınan) – inbred animals [´ınbred´ænıməlz] (ing.) инбредные животные(rus) – animale hybridizatio Helychrysum arenarium (latın).

Buradan belə nəticəyə gəlmək olar ki, genetika terminlərinin rus və ingilis dillərində yaradılmasında olduğu kimi, azərbaycan dilində də sintaktik üsul əsas üsullardan biridir.

ƏDƏBİYYAT

Dəmirçizadə Ə.M. (1962) Azərbaycan dilinin üslubiyyəti, Bakı: Azərnəşr: 319 s.

Qasımov M.Ş. (1973) Azərbaycan dili terminologiyasının əsasları. Bakı, Elm: 186 s.

Kazımov Q.S. (2002) Müasir Azərbaycan dili. Bakı, Ünsiyyət: 420 s.

Sadıqova S.A. (2002) Azərbaycan dili terminologiyasının nəzəri problemləri. Bakı, Elm: 230 s.

Sönməzoğlu F. (2000) Uluslararası ilişkilər sözlüğü. Istanbul, Der yayınları: 774 s.

Бируни и Теофраста. (2011) О применении аконита/ http://www.nova.rambler.ru/search.

Бреус Е.В. (2000) Основы теории и практики перевода с русского языка на английский. М. http://www.englspace.com/dl/details/breus.zip.

Городилова Г.Г. (1989) 30 (см. Е.В.Бреус: http://www.englspace.com/dl/details/breus.zip)

Гуляев Г.В, Мальченко В.В. (1975) Словарь терминов по генетике, цитологии, селекции, семеноводству и семеноведению. М.: Россельхозиздат: 216 с.

Даниленко, (1986): 2, 21 (см. Е.В.Бреус: http://www.englspace.com/dl/details/breus.zip)

Козловский В.Г, Ракипов Н.Г. (1983) Англо-русский сельско-хозяйственный словарь. М.: Русский язык, 880 с.

Лотте Д.С. (1948): 154 (см. Е.В.Бреус: http://www.englspace.com/dl/details/ breus.zip)

Ожегов С.И. (1957) О структуре фразеологии лексикографического сборника. М.: вып.2, с.51-52.

Генетические Термины, Созданные Синтаксическим Способом

М.А. Наджафзаде[1,2]

[1] *Институт ботаники НАНА*
[2] *Институт лингвистики НАНА*

Разъясняется, что синтаксический способ в терминообразовании генетики на азербайджанском (также как на русском и английском языках) – один из основных способов терминообразования; представляется их сопоставительно-лингвистический анализ на английском, русском, азербайджанском и латинском языках. Говорится о том, что при терминообразовании таким путем, обычно используются две и/или больше словосочетаний. Рекомендуется, не принимать терминообразования генетики на азербайджанском как определение эквивалентов для терминов, принадлежащих английскому и русскому языкам.

Ключевые слова: *генетические термины, многокомпонентные термины, способ терминообразования, общетеоретическая деривация*

Terms Of Genetics Derived By Syntactic Method

M.A.Najafzadeh

[1] *Institute of Botany, ANAS*
[2] *Institute of Linguistics, ANAS*

The syntactic way in term derivation of Genetics in the Azerbaijan language (like in Russian and English) is one of the basic ways; their comparative linguistic analysis in English, Russian, Azerbaijani and Latin is given here. Usually two and/or more word-combinations are used in term derivation by the syntactic way. It is recommended: not to accept the term derivation of Genetics in Azerbaijani like equivalent definition for English and Russian terms.

Key words: *Terms of Genetics, Multicomponenet terms, Methods of term derivation, General theoretical derivation*